# Türkiyəli ekspert İğdır-Naxçıvan qaz kəmərini türk dünyasında artan sinerji göstəricisi adlandırıb

İğdır-Naxçıvan qaz kəmərinin açılması həm də Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin gündəliyində duran problemlərin mərhələlərlə həll olunduğu türk dünyasında artan sinerji göstəricisidir.



AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə Türkiyənin Enerji Strategiyaları və Siyasətləri Araşdırma Mərkəzinin (TESPAM) rəhbəri Oğuzhan Akyener bildirib.

Onun sözlərinə görə, Naxçıvan Muxtar Respublikasının (NMR) enerji təhlükəsizliyinin təmin edilməsi təkcə Azərbaycan və ya Türkiyə üçün deyil, bütün türk dünyası üçün əhəmiyyətli məsələdir. "Naxçıvan Muxtar Respublikasının əhalisi nisbətən az olsa da, o, inkişaf baxımından Azərbaycan və Türkiyə üçün mühüm əhəmiyyət kəsb edən strateji əhəmiyyətli regiondur", - deyə TESPAM-ın rəhbəri vurğulayıb.

O, muxtariyyətin qaz təchizatında müəyyən dövrlərdə baş vermiş fasilələrin NMR-in enerji təchizatına da təsir etdiyini xatırladıb. Akyener bununla bağlı Naxçıvanın Türkiyədən elektrik enerjisi ilə təmin olunması ilə bağlı razılaşmaları xatırladan Prezident Rəcəb Tayyib Ərdoğanın sözlərinə diqqət çəkib.

TESPAM-ın rəhbəri enerjini türk dünyasında əlaqələrin inkişafı baxımından mühüm stimul adlandırıb və buna misal olaraq 2025-ci il martın 1-dən türkmən qazının Türkiyəyə tədarükünün başlanmasını göstərib.

"Ümidvaram ki, Türkiyə ilə Azərbaycan arasında enerji sektorunda sıx əməkdaşlıq TDT-yə üzv olan bütün ölkələri əhatə edəcək. Mən Xəzərin şərqindən Azərbaycan sahillərinə və daha sonra Zəngəzur dəhlizi ilə Naxçıvana və Türkiyəyə yeni boru kəmərlərinin çəkiləcəyini istisna etmirəm", - deyə Akyener əlavə edib.

O qeyd edib ki, bu gün təkcə Türkmənistan ildə 65 milyard kubmetr mavi yanacaq ixrac etmək potensialına malikdir. Ekspert Trans-Xəzər qaz kəmərinin tikintisinə və enerji infrastrukturuna digər sərmayələrin qoyulacağı təqdirdə Türkiyəyə qazın təkcə Türkmənistandan deyil, Özbəkistan və Qazaxıstandan da tədarük oluna biləcəyini qeyd edib. "Bütün bunlar həm Türkiyə, həm də Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm amil olacaq", - deyə Akyener bildirib.

Azərbaycan.- 2025.- 7 mart (№51).- S.7.